**UOT 1.091**

# NƏSİMİ FƏLSƏFƏSİNDƏ DİN VƏ AZAD DÜŞÜNCƏ ƏLAQƏLƏRİ

**İradə Zərqanayeva**
fəlsəfə üzrə fəlsəfə doktoru
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
iradazargan@gmail.com
DOİ: 10.30546/sw.2022.2.39.105

**Xülasə.** Məqalədə İmadəddin Nəsiminin fəlsəfi poeziyası tədqiq olunmuş, şairin dünyagörüşündə din və azad düşüncə əlaqələri araşdırılmışdır. Qeyd olunmuşdur ki, Hürufilik təliminin azərbaycanlı nümayəndəsi Nəsimi dini və fəlsəfi biliyini poeziya dilində insanlara çatdırmış, yüksək bəşəri idealları tərənnüm etmişdir. Ruhən Yaradanına, cismən dünyaya bağlı insan həyat imtahanından keçir. Nəsimiyə görə, Allaha bəndə olmadan azadlığı dərk etmək, yaradılışın hikmətini anlamaq olmaz. Quranı oxumaq üçün hərfləri öyrənmək tələb olunduğu kimi, dünyanı dərk etmək və həyatı anlamaq üçün də Quranı oxumaq və Yaradanı tanımaq lazımdır.

**Açar sözlər:** Nəsimi, din, fəlsəfə, azad, düşüncə

**Giriş.** Azərbaycan ədəbiyyatının, dini, fəlsəfi, ictimai fikir tarixinin görkəmli nümayəndəsi Əli Məhəmməd oğlu İmadəddin Nəsiminin (1369-1417) şeirlərində dünya və insan, din və düşüncə əlaqələri, xüsusilə də düşüncə azadlığının, inam və əqidənin insanın həyat fəaliyyətinə, ömür yoluna təsirləri geniş əksini tapmışdır. Şeyx Fəzlullah Nəimi Astarabadinin davamçısı və müridlərindən ən istedadlısı olan Nəsimi Hürufilik təlimininin təsiri altında qəzəllər yazmış, Azərbaycan ədəbiyyatında fəlsəfi poeziyaya öz dəsti-xəttini daxil etmişdir. Nəsiminin mükəmməl təhsili, onun Allaha və dinə olan sevgisi, Quranın zahiri və batini məzmunu haqqında düşüncələri, eyni zamanda dinlə dünyanı özündə yaşadan insan obrazı, həm də görkəmli şair və arif kimi yetişməsinə, xalqın rəğbətini qazanaraq vətənindən uzaqlarda da şöhrət qazanmasına səbəb olmuşdur.

Hürufilər aləmin yaranışını və varlıqların sirrini ərəb əlifbasının 28 hərfi ilə açaraq, öz yozumlarını xüsusi ecazkarlıqla şərh edirdilər. Onlar rəqəm və hərflərlə varlıq aləmi arasında yaradılışın vəhdətini təsdiq edən ümumi əlamətlər tapmağa çalışır, xaliq-məxluq münasibətlərinə fəlsəfi yanaşır, Qurandakı ayələrin dünya ilə əlaqəsini izah etməyə çalışırdılar. Hürufilik məktəbi nümayəndələrinin məqsədi insanı öz ideal, Allahın xəlq etdiyi və Quran hikmətinə müvafiq dəyərində yetişdirmək idi. Onlar özləri bu məqama can atdıqları kimi, yaratdıqları əsərlərlə digər insanları da arxalarınca aparacaqlarına inanırdılar. İnsanın iç dünyasının zahiri dünyaya yansımasına əmin olduqları üçün mənəvi mədəniyyətin maddi dünya ilə vəhdətini görür, kamil insanı əxlaqi, etik, estetik cizgilərlə təsvir edirdilər. Nəsimi qəzəllərində gözəlliyin hikmətlə, sevginin fədakarlıqla tamamlandığını vəsf edir, insanları öz fitrətlərinə naxələf çıxmamağa, ilahi vəhdəti qorumağa çağırır:

“Başını top eyləgil, gir vəhdətin meydanına,
Ey könül, müştaq isən, gər zülfünün çövkanına” (1, 19).

İnsan maddi və mənəvinin vəhdətidir: ruhən Yaradanına, cismən dünyaya bağlıdır. O, Yaradanını tamamilə dərk etməyə qadir olmasa da, Onun yaratdıqlarını öyrənməklə, özünü dərk etməklə Onun varlığını düşünməyə qadirdir. Bu düşüncə hər şeydən əvvəl insanın özü üçün, onun inamı, əqidəsi, həyatının mənası, fəaliyyətinin məzmunu üçün əhəmiyyətlidir. Daxili tarazlığın, vəhdətin qorunmaması nəticəsində yaşanan natamamlıq sindromu cəmiyyətə sirayət edir, nəinki ayrı-ayrı insan talelərinə, hadisə və proseslərə, dolayısıyla tarixə də təsir edir.

Dövrün elmli insanları kimi, Nəsimi də dünyaya İslam dini dəyərləri ilə yoğrulmuş mənəviyyat pəncərəsindən baxırdı. Onun dünyagörüşünü Qurandan xəbərsiz cahil qətiyyən anlaya bilməzdi. O, kainata, dünyaya, təbiətə, insan da daxil olmaqla, bütün canlılara Yaradanın əsəri kimi baxırdı, onda yalnız yaradılış fitrətinə xas gözəllik görmək istəyirdi. Nəsimi insanların öz fitrətlərindəki üstünlükləri dərk etməmələri, Allahın hikmətinə laqeydlikləri və əhdlərini pozaraq Yaradana qarşı nankorluqlarını nəzərdə tutaraq, etibarsız olduqlarını, bu halda eşqə layiq olmadıqlarını bildirirdi:

“Ey Nəsimi, xubların bir başı vardır, min dili,
Eşqilə bel bağlama bu əhdü - peymansızlara” (1, 20).

İnsanın vəhşi təbiətini araşdıran Qərb nəzəriyyələrindən fərqli olaraq Şərq düşüncəsində, eləcə də Nəsiminin poetik fəlsəfəsində, əsasən hikmət və insan müdrikliyi vəsf olunur. Bu fərq də İslam bilgisindən qaynaqlanır. İslama görə, yaxşılıqları, gözəllikləri yaymaq, eyiblərin, eybəcərliklərin yayılmasının qarşısını almaq doğru hesab olunur. Ona görə də Sərrac Tusi, Əbu Hamid Qəzali, Xaqani Şirvani, Nizami Gəncəvi, Cəlaləddin Rumi, Məhəmməd Füzuli kimi İmadəddin Nəsiminin də hədəfi Quranla bəyan edilən hikmət, elm, doğruluqdur. Onları Allahın hikmətindən nəsibi olmayanların naqisliyinin təfərrüatlarından daha çox, insanların kamilliyə yaxınlaşma səviyyələri maraqlandırırdı.

Nəsimi insanın şərə, xəyanətə, fitnə-fəsada yox, xeyirə, ləyaqətə, ədalətə və Haqqa yaxın olmasını istəyir və şeirlərində bu yüksək bəşəri idealı tərənnüm edir. O, insanlıq aləminə Quranın ölçü və meyarlarından nəzər salır, ruhi, intellektual qabiliyyəti, eləcə də güclü müşahidə və məntiqi ilə Allahın vədinin həqiqət olduğunu sezə bilirdi. “Elmü-lədün”dən xəbərdar olduğu üçün haqlı olduğunu bildirir, hikmətin onun bütün cismini doldurduğunu söyləyirdi. Nəsimiyə görə, insanın məqamı hikmətə münasibəti ilə mütənasibdir. Hikməti sevərsən, ucalarsan, fəzilətin artar, məxluqatın ən şərəflisi olduğunu təsdiq edərsən. Hikməti sevməzsən, qəbahətlərin artar, rəzalətə düşər, heyvanlardan da aşağı enərsən.

Nəsiminin qəzəllərində insan obrazı imanı, əxlaqı və əməli ilə ucalaraq Qurandakı ölçülərə yaxınlaşır. O, insanın dürüst olmasını, həyatda doğru davranmasını, insanlıq funksiyasını fitrətinə uyğun yerinə yetirməsini daxilindəki imanla əlaqələndirir. O, “Haqq məndədir” deyərkən, içində “iblis”dən əsər-əlamət olmadığına şahidlik edir, daxilindəki imanı – əminliyi, Allahın vədi olan həqiqəti anladığını və yaşadığını bildirir. Nəsiminin söylədiklərini anlamaq üçün klassik məntiqin “üçüncünü istisna” qanununun tətbiqi və əks arqumentlərdən istifadə etmək kifayətdir.

Bu isə müasir qeyri-səlis məntiq mövqeyindən doğru deyildir. Qeyri-səlis məntiq üçüncünü, dördüncünü, ... hətta sonsuzu istisna etmir. Çünki bəşəri olan heç nə mütləq deyildir. Nəsimini də mütləqlə eyniləşdirmək doğru deyildir. O, sadəcə, mütləqə meyli ilə başqalarından daha fərqlidir. İçindəki nəfsani hissləri müdrikliyindən güclü olan insanlardan isə tamam fərqlidir. Muhamməd (s.ə.s.) Quranla tərbiyə olundu, əsl elmi, həqiqəti, ədaləti, doğruları bilməsinə rəğmən “mən - Quranam” demədi, Qurana əməl etdi, insanlığa örnək oldu. Mürşidin öyüd-nəsihətinə müvafiq yaşamaq hələ mürşid olmaq anlamına gəlmədiyi kimi, Allahın buyurduğunu dərk edərək yaşamaq da insana “ənəlhəqq” deməyə əsas vermir.

Mövlanə Cəlaləddin Rumi (1207-1273) də əsərlərində məcazdan istifadə edərək, insanı su kimi, günəş kimi, torpaq kimi olmağa, ... ya “göründüyü kimi olmağa”, ya da “olduğu kimi görünməyə” səsləyir, amma eyniləşdirmir. O, insan şəxsiyyətinin formalaşmasında nəfsi tərbiyənin rolunu izah etmək üçün “su və qab” məcazından istifadə edir. Göstərir ki, nəfsini arındıran insan şəffaf qabdakı su kimidir, ona baxanda qabı yox, yalnız suyu görərsən, necə ki, Nəsimi Haqqı görürdü. Lakin bu yalnız görüntüdür, həqiqət deyildir. İnsan nəfsini tərbiyə edərək ədalətli ola, Haqqa yaxınlaşa, ondan bir hissə ola bilər, lakin Haqqa şərik ola bilməz. Çünki bənzərlik eyniyyət deyildir. Bənzərlik anlayışı artıq mütləqi təsdiq edir.

Dünya həyatı dini hikməti təsdiq etdiyi kimi, Nəsiminin əsərlərində də Quranın hikməti dünyəvi boyalarla, şeir dili ilə təsdiqini tapır. Onun İslam elmi ilə yanaşı dünyəvi: fəlsəfə, məntiq, kəlam, riyaziyyat, astronomiya və digər biliklərə vaqif olması poeziyasını daha zəngin və qəlbəyatan etmiş, cəmiyyətdə güclü əks-səda doğurmuşdur. Nəsiminin şeirlərində kainat, planetlər, insanın fiziki quruluşu və mənəvi aləminin rəngarəngliyi səmimi boyalarla tərənnüm olunur. Əsərlərində cəbr və həndəsi biliklərdən bəhs etməklə yanaşı, mənəvi tərbiyənin maddi mədəniyyətə təsirlərinə toxunması, onun bilik dairəsinin zənginliyindən, bütövlüyündən və genişliyindən xəbər verir. Şairin bədii irsinə olan sevgi və rəğbət onun yüksək sənətkarlığı, dünyagörüşünün dini və fəlsəfi məzmununun ictimai əhəmiyyəti ilə bağlıdır.

Nəsiminin “Seçilmiş əsərləri”nə yazılmış ön sözdə deyilir: “Mistikadan və xurafatdan uzaq olan bugünkü oxucu üçün Nəsiminin hürufi ideyaları, əbcəd hesabı ilə müxtəlif manipulyasiyalar aparmaq yolu ilə Quran ayələrini insan üzü ilə eyniləşdirmək cəhdləri deyil, şairin qabaqcıl humanist görüşləri, poetik obrazlarının təzə-tərliyi, orijinallığı, Nəsimi sənətinin yüksək estetik təsir qüvvəsi, Nəsimi dilinin

ritmikası daha çox maraqlı və cəlbedicidir... İndiki oxucu yalnız şərhlərdən və elmi əsərlərdən anlayır ki, böyük şairimiz –

“Dün gecə bir dilbər ilə eyşimiz məmur idi,
Lakin ol xunxarə gözlər uyxudan məmur idi.
Həmnişin idi Nəsimi dün gecə bir yar ilə,
Könlü şadü, vəxti xürrəm, məclisi pürnur idi.”

- deyərkən “dilbər” sözü altında öz müəllimi və mürşüdü Fəzlullah Nəimini nəzərdə tuturmuş. Əslində bu gün həmin kontekst məna və mahiyyətini tamamilə itirir və yalnız mətnin özü qalır: oxucunun gözü qarşısında iki sevgilinin görüşüb danışdığı əsrarəngiz bir gecə və gecənin yüksək sənətkarlıqla tərənnümü canlanır”(1, 9). Önsöz müəllifinin mövqeyinə hörmətlə yanaşır, lakin məsələyə fərqli baxışın olmasını da mümkün hesab edirik. Əvvəla, qeyd etmək lazımdır ki, müasir oxucuların hamısı ateist deyil. Dini və fəlsəfi biliyi olan oxucu şairin poeziyasını olduğu kimi qəbul etmək dünyagörüşünə sahibdir. Şeirdəki “Lakin ol xunxarə gözlər uyxudan məmur idi” misrası daim oyaq, görən və eşidən Allaha işarədir. Müsəlmanların beş vacib namazdan əlavə, gecəyarısı namazı da vardır ki, Nəsimi bu şeirdə Allahla həmin ibadət anını təsvir etmişdir. Sufi poeziyasında gecəyarısı namazının xüsusi bəlağətlə nəzmə çəkilməsinə onlarla misal göstərmək olar.

Nəsiminin poeziyasının dərinliyinə varmaq üçün İslam dini ilə yanaşı, fəlsəfə ilə tanışlıq da vacibdir. Onun dinə və dünyaya fəlsəfi yanaşmasının məhsulu olan yaradıçılığında “cövhər və ərəz”, “illət-məlul”, “təqəddum və təxxur”, “vahid və kəsir”, “kon və fəsad” və s. fəlsəfi mövzular ətraflı şərh olunur. Nəsimi poeziyasında insanın hər iki aləmdəki məqamından, malik olduğu dəyərlərdən söhbət açılır. Amma bu dəyərlərə diqqətin olmaması və onun üstünlüklərinin yalnız dünya həzzləri ilə əlaqələndirilərək axirət düşüncəsinin unudulmasını şair təəssüflə qeyd edir. Nəsimi yazır:

“Ey eşqə günah deyən günahkar,
Tərk eyləməzəm mən ol günahı.
Çün vəhdətə buldu yol müvəhhid,
Cərh oldu bu münkirin güvahı.
Məqsudunə bulmadı hidayət,
Hər kimsə ki, bilmədi bu rahı.
Mislivü nəziri yoxdur Onun,
Vəsfində nə söyləyim, ilahi?!” (1, 87)

*Azərbaycanın XX əsr yazılı nümunələrində, xüsusilə Sovet dövrü ədəbiyyatında “dilbər” sözü cümlədə həm isim, həm də sifət olaraq, öz ruhani, dəruni, batini məzmunundan kənar, zahiri gözəlliyin ifadəsi olaraq işlədilmiş və yalnız dünyəvi məzmun kəsb etmişdir. Etimoloji tərkibi diqqətə alınmadığı üçün sözün dini, ruhani tərəfi kölgədə qalmışdır. Təsadüfi deyil ki, “dilbər” sözünün birinci komponenti “dil” – farsca “ürək” deməkdir, “bər” isə farsca “bordən” məsdərinin əsası olub, “rəhbər” sözündəki kimi, “aparan” mənasını verir. Beləliklə, “dilbər” – “qəlbi” aparan, təsirinə salan, idarə edən, başqa sözlə, “məni məndən alan”, “könül alan”, “qəlbi özünə çəkən”, “qəlbi idarə edən” mənalarını verir. (2)* İnsanı başqa canlılardan üstün edən onun qəlbi, duyğuları, ruhudur.

Əbu Hamid Qəzali hədisə istinadən yazır ki, “Qəlblər ancaq Allahın zikri ilə hüzur tapar”. Qəlbi sevindirən, rahatlayan, sakitləşdirən və hüzura qovuşduran səbəb - Yaradanı zikr etmək, Onu anmaq, Ona təslim olmaq, Onu təsdiq və Ona şükür etməkdir.

Nəsimi kəlamlarında olan fəlsəfi və irfani mənalar həddən artıq dərin olduğundan, hamının bunları dərk etməsi çətin idi. Bu səbəbdən mütəfəkkir şair çox çətin bir həyat yolu keçmişdir. Onun şeirlərindəki dərin fəlsəfi mənalar və fitri duyum dövrünün ruhaniləri tərəfindən xoş qarşılanmamış, mütəfəkkir irrasional düşüncələrinə görə təqib olunmuş, əzab-əziyyət çəkmişdir.

Nəsimi dinin dünya üçün, insanın tərbiyəsi və kamilləşməsi üçün nazil olduğunu vurğulayır, insanın öz dəyərini bilməsi, şəxsiyyətinin fərqində olmasının ictimai əhəmiyyətini diqqətə çatdırırdı. Mütəfəkkir insan aləminə, onun ləyaqətinə, qüdrətinə olan hədsiz sevgisini şeirlərində vəsf etmiş, insanın güzgü xüsusiyyətini, həqiqət nurunun təcəllisi, fəzilət sahibi olmasını xatırlatmışdır.

“Adım Nəsimidir, bu gün oldum kəlami-natiq uş,
Həm ayinə, həm nuri-həq, həm Fəzli-yəzdan olmuşam.” (1, 133)

Nəsimi yaradıcılığı bütünlüklə insan gözəlliyinə və insan varlığının ucalığına həsr olunmuşdur. Amma bu gözəllik bütün insanlara deyil, özünü dərk edən kamil insana xasdır. Nəsimi belə insanı “canımın cananəsi” adlandırır. O, batinində gizli, sirli və əbədi bir xəzinə olan insanın, eyni zamanda dünyada viran olduğunu və dəyərsiz hesab edildiyini görüb çox sarsılır:

“Gəl gör məni batində kim, nə gizli gəncəm fanisiz,
Zahirdə gör bu surəti, aləmdə viran olmuşam.”

Nəsiminin “Yürü” qəzəli İslamdakı Allah - -bəndə münasibətinin lakonik interpretasiyası olmaqla yanaşı, həm də şairin dünyagörüşü və fəlsəfi baxışlarının gerçək ifadəsidir:

“Sən də mi can olmadın, cananı bilməzsən, yürü,
Dərd ilə yar olmadın, dərmanı bilməzsən, yürü.
Sən məni mürşidə ver, alsın səni versin sənə,
Dərd ilə yar olmadın, dərmanı bilməzsən, yürü!
Əbcədi oxumadan elmü-qüdrət söylərsən..,
Qüdrəti anlamadan, irfanı bilməzsən, yürü.
Oxumadan Fatihənin surəsin ixlas ilə,
Əlifi anlamadan Quranı bilməzsən, yürü.
Ey Nəsimi, davaya məna gərək, eşqə nişan,
Sən dəxi qul olmadan Sultanı bilməzsən, yürü.” (3, 71)

Şeirdə insan şəxsiyyətinin yetişməsi, onun idrakının formalaşması üçün dünya sınaqlarının, həyat imtahanının labüdlüyü vurğulanır. Dünyanı mübarizə meydanına bənzədən şair həyatın, eşqin mənasız olmadığını söyləyir. Dərmanın faydasını anlamaq üçün dərd çəkmək, cəfalara qatlaşmaq və sınaqlardan çıxmaq lazımdır. “Sultana qul”, “Canana can” – Allaha bəndə olmadan isə yaradılışın hikmətini dərk etmək mümkün deyildir. Quranı oxumaq üçün hərfləri öyrənmək tələb olunduğu kimi, dünyanı dərk etmək və həyatı anlamaq üçün də Quranı oxumaq, bəndə olmaq, Yaradanı tanımaq lazımdır.

**İstifadə olunmuş ədəbiyyat**


1. Nəsimi İmadəddin. Seçilmiş əsərləri. İki cilddə, I cild. Bakı, “Lider nəşriyyat”, 2004, 336 səh.
2. *Bəşir Əhmədov. Etimologiya lüğəti. 04.10.2019. https://www.azleks.az/online-dictionary/dilb%-C9%99r?s=my.*
3. İmadəddin Nəsimi. Əsərləri, 1-ci cild. Bakı: “Elm”, 1973.


## ВЗАИМООТНОШЕНИЕ РЕЛИГИИ И СВОБОДОМЫСЛИЯ В ФИЛОСОФИИ НАСИМИ

**Ирада Зарганаев**

**Резюме.** В статье исследуется философская поэзия Имадеддина Насими, а также рассматривается соотношение религии и свободомыслия в мировоззрении поэта. Как уже отмечалось, представитель азербайджанской школы хуруфизма, Насими языком поэзии доносил до народа свои религиозно-философские знания и прославлял высокие человеческие идеалы. Духовно связанный с Творцом и физически связанный с миром, человек проходит испытание жизнью. По словам Насими, «не будучи рабом Бога, невозможно понять свободу и мудрость творения. Необходимо выучить буквы, чтобы прочитать Коран, а чтобы понять мир и понять жизнь необходимо познание истинной сущности Творца, жажда познания невидимого».

**Ключевые слова:** Насими, религия, философия, свобода мысли

# THE RELATIONSHIP BETWEEN RELIGION AND FREE THOUGHT IN PHILOSOPHY OF NASIMI

**Irada Zarqanaeva**

**Abstract.**The article studies the philosophical poetry of Imadeddin Nasimi, as well as the relationship between religion and free thought in the poet's worldview. It was noted that Nasimi, a representative of the Azerbaijani school of Hurufism, conveyed his religious and philosophical knowledge to the people in the language of poetry and glorified high human ideals. Spiritually connected with the Creator and physically connected with the world, a person passes the test of life. According to Nasimi, without being a slave of God, it is impossible to understand the freedom and wisdom of creation. It is necessary to learn the letters in order to read Koran, as well as it is necessary to read Koran and know the Creator in order to understand the world and the life.

**Keywords:** Nasimi, religion, philosophy, free thought.